# IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin gündəliyi

*İyulun 15-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" adlı IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi layihəsinə start verib.*



*IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin açılış mərasimindən görüntü*

***

IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Böyük Britaniyada fəaliyyət göstərən Gənclər Arasında Ümumi Söz (ACWAY) beynəlxalq təşkilatı və Azərbaycan Respublikasının Gənclər Fondu ilə birgə təşkil olunub.

Yay məktəbi çərçivəsində "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" mövzusunda I Beynəlxalq Gənclər Forumu keçirilib.



Forumda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri professor **Etibar Nəcəfov** Azərbaycanda multikulturalizm ənənələrindən bəhs edib. O qeyd edib ki, Azərbaycanda müxtəlif dinlərə və millətlərə mənsub insanlar əsrlərdir birgə yaşayırlar. Azərbaycan multikulturalizmi dövlət siyasətinin tərkib hissəsi elan edən çox az ölkələrdən biridir.

Şöbə müdiri, eyni zamanda, Azərbaycan Respublika-

sının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi"nin əhəmiyyətindən danışıb. O vurğulayıb ki, müxtəlif qitələrdə yaşayan, fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlaşma çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yaradan "Bakı Prosesi" mədəniyyətlərarası dialoqun inkişafı baxımından böyük önəm kəsb edir. "Bakı Prosesi" çərçivəsində keçirilən tədbirlər dinlərarası dialoqun inkişafına böyük töhfə verib.

Etibar Nəcəfov Beynəlxalq Multikulturalizm Yay və Qış məktəblərinin önəmindən danışaraq bildirib ki, müxtəlif millətlərdən olan gənclərin bir araya gəlmələri çox əhəmiyyətlidir. Bu, onlar arasında dialoqun, dostluğun yaranmasına xidmət edir.



Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru **Rəvan Həsənov** qeyd edib ki, BBMM yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr reallaşdırır. Mərkəzin önəmli layihələrindən biri də artıq ənənəyə çevrilən, mütəmadi olaraq ildə iki dəfə təşkil edilən Beynəlxalq Multikulturalizm Qış və Yay məktəbləridir. 2019-cu ilin yaz semestrində "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənlərinin tədris olunduğu yerli və xarici universitetlərdə təhsil alan tələbələrin qatıldıqları IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi iyulun 15-dən 21-dək Bakı şəhəri ilə yanaşı, Oğuz, Şəki və Qəbələ rayonlarında fəaliyyət göstərəcək. Forum çərçivəsində dinlərarası və mədəniyyətlərarası dialoqun inkişafına həsr olunan seminar və müzakirələr keçiriləcək.

Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru **Fərid Cəfərov** qeyd edib ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub. Şərqlə Qərbin qovuşuğunda yerləşən ölkəmiz müxtəlif dinlərin, millətlərin yaşadığı məkandır. Azərbaycanda gənclər cəmiyyətin fəal üzvləridir və onlar tolerantlıq ruhunda böyüyürlər. Təkcə ölkəmizdə deyil, bir sıra beynəlxalq tədbirlərdə də gənclərimiz tolerantlıq və multikultural dəyərlərin təbliğ edilməsində böyük rola malikdirlər. Fərid Cəfərov Gənclər Fondu tərəfindən tolerantlıq və multikulturalizm ənənələrinin təşviqi istiqamətində müxtəlif layihələr reallaşdırıldığını da diqqətə çatdırıb.

"Gənclər Arasında Ümumi Söz" (ACWAY) beynəlxalq təşkilatının direktoru **Ravaad Mahyub** bu önəmli tədbirin təşkilinə görə Azərbaycan hökumətinə və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə minnətdarlığını bildirib. O deyib ki, müxtəlif dinlərə və millətlərə mənsub insanların bir-birlərinə münasibətdə qarşılıqlı hörmət və anlayış göstərmələri tolerantlıq üçün əsas şərtdir. Direktor 2016-cı ildən bu günə kimi ACWAY-ın yüzdən çox tədbir keçirdiyini, BMT və digər beynəlxalq təşkilatlar, həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə əməkdaşlıq şəraitində çalışdığını bildirib. Sonra ACWAY-ın fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.



"Striling" fondunun direktoru **Edvard Rou** bildirib ki, Azərbaycanda ilk dəfə olmasına baxmayaraq, burada gördüyü qonaqpərvərlik və tolerant mühit onda böyük təəssürat yaradıb. O, "Striling" fondunun dinlərarası və mədəniyyətlərarası dialoq sahəsində həyata keçirdiyi layihələrdən bəhs edib. Fondun rəhbəri müxtəlif dinlərə, mədəniyyətlərə mənsub olmalarına baxmayaraq, insanların sülh şəraitində yaşamaq kimi ümumi məqsədlərinin olduğunu bildirib. Əlavə edib ki, bu prinsip cəmiyyətin inkişafı üçün vacibdir.

Sonra Azərbaycanla bağlı "Tolerantlıq diyarı" adlı videoçarx nümayiş olunub.

Forum işini bölmə iclasları ilə davam etdirib.

* * *

BBMM-in təşkil etdiyi "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları iyulun 15-də Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı önünə tər güllər düzülüb.



*Multikulturalizm Yay Məktəbinin iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edərkən*

Sonra Şəhidlər xiyabanına gedən qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə gül dəstələri qoyublar.



*Multikulturalizm Yay Məktəbinin iştirakçıları Şəhidlər xiyabanında*

Azərbaycan paytaxtının mənzərəsini seyr edən iştirakçılara Şəhidlər xiyabanının tarixi və Bakıda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

* * *

İyulun 15-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri professor Etibar Nəcəfov IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları ilə görüşüb.

Görüşdə şöbə müdiri Azərbaycandakı tolerant və multikultural mühit barədə məlumat verib. Bildirib ki, ölkəmizdə dinlərarası harmoniya, qədim tolerantlıq və multikulturalizm ənənələri mövcuddur, ayrı-ayrı dinlərə və mədəniyyətlərə mənsub insanlar əsrlərdir burada qarşılıqlı anlaşma, sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda məscidlərlə yanaşı, kilsələr, sinaqoqlar fəaliyyət göstərir, insanların dini etiqadlarını sərbəst şəkildə icra etmələri üçün hərtərəfli şərait yaradılıb.

Etibar Nəcəfov qeyd edib ki, Azərbaycanda tarixən mövcud olan bu ənənələrin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir. Multikulturalizm Azərbaycanın dövlət siyasəti və xalqın həyat tərzinə çevrilib. Ölkəmizdəki multikulturalizm mühiti bütün dünyaya nümunədir.

Görüşdə yay məktəbi iştirakçılarının sualları cavablandırılıb.

* * *

İyulun 16-da "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin İdarə Heyətinin sədri Tural Gəncəliyev IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları ilə görüşüb.





İcma rəhbəri görüşdə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasətinin ağır nəticələri barədə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, 1 milyondan çox qaçqın və məcburi köçkün, o cümlədən 80 mindən artıq Dağlıq Qarabağ azərbaycanlısı öz doğma yurdlarından didərgin düşüb. Ermənilər Dağlıq Qarabağda XX əsrin ən dəhşətli cinayətlərini törədiblər. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamə Azərbaycan ərazilərindən işğalçı qüvvələrin dərhal və qeyd-şərtsiz çıxarılmasını və bu torpaqlardan zorla qovulmuş insanların öz evlərinə geri qaytarılmasını tələb edir. Ermənilər işğal etdikləri Azərbaycan ərazilərində tarixi, mədəni və dini abidələri, müqəddəs ocaqları dağıdıblar. Maddi-mədəniyyət abidələrimizin dağıdılması prosesi indi də davam edir. İşğal altında olan Qarabağ həm də Azərbaycanın musiqi beşiyi adlanır. Şuşa da daxil olmaqla işğal edilmiş ərazilərimizdə yerləşən musiqi məktəbləri ermənilər tərəfindən dağıdılıb.

İcma sədri qeyd edib ki, Azərbaycan müxtəlif mədəniyyətlərin qovuşuğunda yerləşən bir ölkə kimi istənilən dinə və dilə malik xalqların azad şəkildə fəaliyyətinə imkan yaradır.

Sonra Dağlıq Qarabağın mədəniyyəti və tarixindən bəhs edən videoçarx nümayiş etdirilib. Videoçarxda məscidlərimizin ermənilər tərəfindən dağıdılmasından, eyni zamanda, Şuşa şəhərində Rus Pravoslav Kilsəsinin erməniləşdirilməsindən bəhs olunub.

Diqqətə çatdırılıb ki, erməni təcavüzkarlarının qarət etdikləri muzeylərdə Azərbaycan xalqının tarixi və mədəniyyəti ilə bağlı qiymətli əşyalar, rəsm və heykəltəraşlıq əsərləri, dünya şöhrətli Azərbaycan xalçaları və sair olub.

Daha sonra Yay məktəbi iştirakçılarının sualları cavablandırılıb.

* * *

"Azərbaycanda müxtəlif millətlərə, dinlərə, mədəniyyətlərə mənsub insanlar əsrlərdir sülh və həmrəylik şəraitində yaşayırlar. Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləri bu birgəyaşayışın bütün dünyaya təqdim olunması baxımından çox əhəmiyyətlidir. Artıq ənənəyə çevrilən bu məktəblər əcnəbi tələbələrin Azərbaycanın multikultural ənənələri ilə yaxından tanış olmaları üçün çox yaxşı fürsətdir".

Bu fikirləri IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları ilə görüşdə BBMM Himayəçilik Şurasının sədri akademik Kamal Abdulla deyib.

Yay məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural və tolerant mühit barədə məlumat verən Kamal Abdulla 2016-cı ilin Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə "Multikulturalizm İli" elan edildiyini xatırladıb. Akademik vurğulayıb ki, multikulturalizm Azərbaycanın dövlət siyasəti, xalqımızın həyat tərzidir. Azərbaycan dövləti özünün multikultural siyasətini, tolerant mövqeyini daim qoruyur və inkişaf etdirir.

Himayəçilik Şurasının sədri qonaqların nəzərinə çatdırıb ki, Azərbaycanda multikultural həyat tərzinin qədim tarixi və böyük ənənələri var. Ən qədim zamanlardan ölkəmizdə müxtəlif xalqların nümayəndələri arasında dərin dostluq və qarşılıqlı əməkdaşlıq mühiti formalaşıb. "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabı ölkəmizdəki multikultural həyat tərzinə işıq salır.



*Multikulturalizm Yay Məktəbi iştirakçılarının BBMM-də akademik Kamal Abdulla ilə görüşü*

Kamal Abdulla bildirib ki, bu gün Azərbaycan multikulturalizmi bir çox ölkələrin universitetlərində fənn kimi tədris edilir.

Görüşdə Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçılarının sualları cavablandırılıb.

* * *

İyulun 17-də "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" I Beynəlxalq Gənclər Forumu çərçivəsində plenar sessiyalar keçirilib. Forum BBMM-in IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi layihəsi çərçivəsində təşkil edilib.

"Multikulturalizm siyasəti və multikulturalizmin Azərbaycan modeli" mövzusunda keçirilən ilk sessiyanın moderatoru İrina Kunina qeyd edib ki, müasir dövrdə multikulturalizmin bir sıra modelləri var. Bu modellər öz xüsusiyyətlərinə görə bir-birindən fərqlənir. Multikulturalizmin müxtəlif modelləri arasında bəzi fərqlərin olmasına baxmayaraq, multikultural cəmiyyətin formalaşmasında və multikultural mühitin dəstəklənməsində aparıcı rol dövlətə məxsusdur.

Moderator multikulturalizmin Azərbaycanda həyat tərzinə çevrildiyini, ölkədə ayrı-ayrı millətlərin nümayəndələrinin sülh şəraitində yaşadıqlarını vurğulayıb.



BBMM-in Layihələr şöbəsinin müdiri Abbas İsmayılov sessiyada çıxış edərək Azərbaycanın multikulturalizm modelindən bəhs edib. O bildirib ki, multikulturalizmin Azərbaycan modelinin məqsədi dünyada dinlər, xalqlar və millətlər arasında birgəyaşayışın harmoniyasını yaratmaqdır. Hazırda bu model dünyaya bir nümunə kimi göstərilir və öyrənilir.



*I Beynəlxalq Gənclər Forumu çərçivəsində plenar sessiyadan görüntü*

Şöbə müdiri qeyd edib ki, Azərbaycanın dövlət siyasətinə çevrilən multikulturalizm siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Hazırda Prezident İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Azərbaycanda millətlərarası münasibətlər və din sahəsində həyata keçirilən dövlət siyasəti beynəlxalq hüququn normalarına və zəngin tarixi köklərə əsaslanır, bu səbəbdən də dünya ictimaiyyətinin diqqətini cəlb edir.

A.İsmayılov dövlətimizin başçısının müvafiq Fərmanı ilə yaradılmış Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin gördüyü işlər, həyata keçirdiyi layihələr barədə də ətraflı məlumat verib. Qeyd edib ki, multikulturalizm və tolerantlığın qorunub inkişaf etdirilməsi istiqamətində görülən işlər dövlət-din münasibətlərinin, eyni zamanda, millətlərarası və dinlərarası münasibətlərin tənzimlənməsinə xidmət edir.

Sonra BBMM-in fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Mədəniyyət Nazirliyi Aparatının rəhbərinin müavini, Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə çıxışında deyib ki, Azərbaycan multikulturalizmin, tolerantlığın, birgəyaşayışın təkcə regionda deyil, beynəlxalq arenada da təşviqi ilə məşğul olur. Dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınan ölkəmizdə sivilizasiyalararası və dinlərarası dialoqa töhfə verən bir çox nüfuzlu beynəlxalq tədbirlər keçirilir və bu, artıq ənənə halını alıb.

V.Eyvazzadə Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" çərçivəsində mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafı

sahəsində gerşəkləşdirilən uğurlu layihələrdən bəhs edib. Bildirib ki, "Bakı Prosesi" mədəniyyətlərarası dialoqun inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. O, həmçinin multikulturalizmə zidd olan ksenofobiya, diskriminasiya və islamofobiyanın acınacaqlı təzahürlərindən danışıb.

Daha sonra "Bakı Prosesi"nin 10 illik fəaliyyətini əks etdirən videoçarx göstərilib.

"Millətlərarası münasibətlərin gələcəyə inteqrasiyası" adlı plenar sessiyanın moderatoru Sara Rahim Böyük Britaniyada fəaliyyət göstərən Gənclər Arasında Ümumi Söz (ACWAY) təşkilatının fəaliyyətindən, gənclərlə bağlı reallaşdırdığı layihələrdən danışıb.

Qriffit Universitetinin Dinlərarası və Mədəni Dialoq Mərkəzinin direktoru Brayan Adams çıxışında dini və milli tolerantlıq mühitinin millətlərarası münasibətlərin sağlam şəkildə inkişafına töhfələri barədə söhbət açıb. O, müxtəlif millətlərdən olan gənclərin bir araya gələrək mədəniyyətlərarası və dinlərarası dialoqla bağlı müzakirələr aparmalarının əhəmiyyətli olduğunu bildirib. Eyni zamanda, gənclərin dinlərarası və mədəniyyətlərarası dialoq kimi təşəbbüslərə daha fəal şəkildə cəlb edilməsinin, onların liderlik bacarıqlarının inkişaf etdirilməsinin vacib olduğunu qeyd edib. Brayan Adams bu cür imkanların yaradılmasına görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib.

Plenar sessiyalar müzakirələrlə davam edib.

* * *

İyulun 20-də keçirilən bölmə iclasında Yay məktəbinin iştirakçıları Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktorunun müavini Rəfi Qurbanovun "Müasir İKT vasitəsilə terrorizmi və zorakılığı təbliğ edən məzmunların yayılması" mövzusunda mühazirəsini dinləyiblər.

Müasir kommunikasiya vasitələrinin verdiyi imkanlardan sui-istifadə hallarının hər keçən gün artdığını diqqətə çatdıran R.Qurbanov bildirib ki, bu gün dünyada 4 milyarddan çox insan internetdən istifadə edir. Onlardan 3 milyardı sosial şəbəkə istifadəçisidir. İnternet istifadəçilərinin böyük əksəriyyətinin gənclər olduğunu vurğulayan mühazirəçi qeyd edib ki, bu da ekstremist qrupların daha çox sosial şəbəkələr vasitəsilə təbliğatlarının gücləndirilməsinə gətirib çıxarır.

İnformasiya-kommunikasiya şirkətləri tərəfindən zərərli ideologiyaların yayılmasının qarşısının alınması üçün preventiv tədbirlərin görülməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verən R.Qurbanov hazırda sosial şəbəkələr vasitəsilə belə təbliğatların qarşısının alınması məqsədilə müxtəlif ölkələr tərəfindən sərt qanunvericilik bazasının yaradıldığını diqqətə çatdırıb.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb və fikir mübadiləsi aparılıb.



* * *

IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin iştirakçıları Qəbələ rayonuna səfər ediblər. Tələbələr udilərin yaşadığı Nic qəsəbəsində yerləşən "Cotari" Alban-Udi Kilsəsini və "Azərbaycan-Udi Ocağı"nı ziyarət edib, Qəbələdəki "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksində olublar.



*Multikulturalizm Yay Məktəbinin iştirakçıları Qəbələ rayonunun Nic qəsəbəsində*

Yay məktəbinin iştirakçıları Oğuzda Yuxarı və Aşağı məhəllə sinaqoqlarına da baş çəkəndən sonra Xalxal meşəsində olublar. Daha sonra iştirakçılar Şəkinin Kiş kəndindəki qədim alban məbədini ziyarət edib, "Yuxarı Karvansaray" mehmanxana-kompleksi ilə tanış olublar.

* * *

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Böyük Britaniyada fəaliyyət göstərən Gənclər Arasında Ümumi Söz (ACWAY) beynəlxalq təşkilatı və Azərbaycan Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə işə başlayan "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin başa çatması ilə bağlı iyulun 21-də tədbir keçirilib.

BBMM-in icraçı direktoru Rəvan Həsənov tədbirdəki çıxışında yay məktəbi barədə məlumat verib. Bildirib ki, BBMM yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr reallaşdırır. Mərkəzin önəmli layihələrindən biri də artıq ənənəyə çevrilən, mütəmadi olaraq ildə iki dəfə təşkil edilən Beynəlxalq Multikulturalizm Qış və Yay məktəbləridir.

R.Həsənov deyib ki, IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi Bakı şəhəri ilə yanaşı, bölgələrdə də fəaliyyət göstərib. İştirakçılar yerli əhali, dini icmalar və din xadimləri ilə görüşüb, tarixi abidələrlə tanış olublar.

Yay və Qış məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır. Tədris layihəsi çərçivəsində hazırda dünyanın 21, Azərbaycanın isə 39 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan Yay və Qış məktəblərinin məqsədi həmin gənclərin öyrəndikləri nəzəri biliklərin multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə praktik tətbiqini öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri professor Etibar Nəcəfov bildirib ki, multikulturalizm cəmiyyətdə mövcud olan etnik, dini, irqi, mədəni müxtəlifliklər arasında əlaqələrin tənzimlənməsində mühüm rol oynayır. O bildirib ki, Azərbaycan multikulturalizmi dövlət siyasətinin tərkib hissəsi elan edən çox az ölkələrdən biridir. Ölkəmiz bu sahədə böyük uğur qazanıb. Azərbaycanda dini azadlıq tam təmin olunub. Ölkə əhalisinin 90 faizindən çoxu müsəlman olsa da, burada müxtəlif dinlərin nümayəndələri sülh şəraitində yaşayırlar. Dövlət bütün dinlərə lazımi yardımlar, o cümlədən maliyyə yardımı göstərir.



*IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin yekun tədbiri*

Çıxışlarda qeyd edilib ki, IX Beynəlxalq Multikulturalizm Yay Məktəbində 38 ölkənin – Azərbaycan, Madaqaskar, Mərakeş, ABŞ, Keniya, Çex Respublikası, Almaniya, Meksika, İngiltərə, Kanada, Hindistan, Avstriya, Yaponiya, Polşa, Rusiya, Efiopiya, Braziliya, Macarıstan, Türkiyə, Pakistan, Ruanda, Sudan, Myanma, Əlcəzair, Kamboca, Zambiya, Kamerun, Argentina, İndoneziya, İsveç, Estoniya, Portuqaliya, Xorvatiya, Qazaxıstan, Rumıniya, Ukrayna, İran və Avstraliyanın aparıcı universitetlərindən 110 tələbə iştirak edib. Yay məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural durum, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşaması haqqında mühazirələr təqdim edilib.



IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin proqramı maraqlı tədbirlərlə yadda qalıb. Yay məktəbi çərçivəsində "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" mövzusunda I Beynəlxalq Gənclər Forumu keçirilib. Üç gün davam edən forumda "Millətlərarası münasibətlərin gələcəyə inteqrasiyası" adlı plenar sessiya və "Sülh üçün dialoq", "Dinlərarası münasibətlərin müxtəlif platformalarda tətbiqi", "Din və münaqişələrin həlli yolu", "Multikulturalizm siyasəti və Azərbaycan multikulturalizmi modeli", "Millətlərarası münasibətlərin gələcəyə inteqrasiyası", "Din, texnologiya və gənclər: dinlərarası gələcək", "Qarşılıqlı hörmətə əsaslanan mədəniyyətlərarası əlaqə" və "Gənclərin mədəniyyətlərarası dialoqda rolu" mövzularında bölmə iclasları təşkil edilib.

Çıxış edənlər bildiriblər ki, artıq ənənəyə çevrilmiş Beynəlxalq Multikulturalizm Yay və Qış məktəblərinin nəticəsi olaraq xaricdə Azərbaycanın gənc dostlarının və onların yaxın çevrəsinin timsalında ölkəmizin haqq işini dəstəkləyən intellektual gənclərdən ibarət ünsiyyət platforması və güclü lobbisi formalaşıb. İntensiv şəkildə davam edən bu proses sübuta yetirir ki, Prezident İlham Əliyevin Azərbaycanın dünyada tanıdılması istiqamətində müəyyənləşdirdiyi hədəflər uğurla reallaşmaqdadır.

Tədbirdə IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi iştirakçılarının Prezident İlham Əliyevə müraciəti oxunub.